■ Əlibəy Məmmədli

## Bilmədim

Səni yaddaşımdan silərəm dedim,
Sən öl, özüm ölüm silə bilmədim.
Getsən də arxanca gələrəm dedim,
Biraz işim çıxdı, gələ bilmədim.

Əyriyə düz dedin zarfatyana,
Səbreylə, döz dedin zarafatyana,
Elə bir söz dedin zarafatyana?
Məni dərdə saldın, gülə bilmədim.

Göylərə ucaldın, ay tacı oldun,
Gah da əlacımın dərdləri oldun.
Gah şirin göründün, gah acı oldun,
Bu nə davranışdı, bilə bilmədim?

Bəsdi ağladığın, daha gül - dedin,
Götür ürəyini iki böl dedin,
Məni sevirsənsə yıxıl, öl dedin,
Nə qədər yıxıldım, ölə bilmədim.